**KAMRAN İMANOV**

# ƏQLİ MÜLKİYYƏT MÜASİR MƏRHƏLƏDƏ

(hüquqların qorunması və təminatı)

**Bakı – 2020**

**Kamran İmanov,**

Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyinin İdarə Heyətinin sədri.

**Əqli mülkiyyət müasir mərhələdə (hüquqların qorunması və təminatı). Bakı, 2020**

Bu kitab Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyinin İdarə Heyətinin sədri Kamran İmanovun 2 mart 2020-ci il tarixində Əqli Mülkiyyət Agentliyi və Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Ədliyyə Akademiyasının birgə təşkilatçılığı ilə hakim vəzifəsinə namizədlər üçün tədris kursu çərçivəsində "Əqli mülkiyyət hüquqlarının qorunması və hüquqi təminatı" mövzusunda keçirilən seminarda etdiyi “Əqli mülkiyyət müasir mərhələdə (hüquqların qorunması və təminatı)” adlı prezentasiyası əsasında hazırlanmışdır.

**© Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyi, 2020**

# Mündəricat


Giriş ............................................................ 5

I. Əqli mülkiyyətin (ƏM) yaranması, əqli fəaliyyət (ƏF), əqli fəaliyyət nəticələri (ƏFN) və biliklər dövranı .......................................... 10

II. Əqli mülkiyyət statistikasından ...................... 26

III. Əqli mülkiyyət hüquqlarının təminatı və məhkəmə-hüquq islahatları ........................... 32

IV. Əqli mülkiyyət hüquqlarının təminatı və müdafiəsi sxemlərdə ..................................... 41

# GİRİŞ

**1.** Hörmətli, çətin imtahan sınaqlarından keçən gələcək hakimlərimiz!

Sizi təbrik edirəm və hörmətli Ədliyyə naziri Fikrət müəllimə verdiyim sözü yerinə yetirərək, sizinlə görüşə gəlmişəm və qarşınızda təqdimat ilə çıxış etmək mənə qismət olub.

Hörmətli məşvərət!

Bəşəriyyətin dünyaya bəxş etdiyi ən güclü məntiqə malik olan mütəfəkkirlərindən biri – Aristotelin məşhur kəlamını xatırlayıram:

*"İlk öncə söhbətin, araşdırmanın nədən olması və hansı bilik istiqamətinə məxsus olduğu haqda" demək önəmlidir. Qədim romalılar bu fikri azca dəyişərək və təkmilləşdirərək, bizə latın kəlməsini yadigar qoyublar: "Jn medias res", yəni "mahiyyətin bilavasitə özünə yönəlmək".*

Bir sözlə, söhbət əqli mülkiyyətdən (ƏM) gedirsə, müzakirə predmeti "əqli mülkiyyət" söz birləşməsindəndirsə, tamamilə doğru sual yaranır: "Əql mülkiyyət ola bilərmi?" Axı, əslində "əql" varlıqdır, sərvətdir və bu anlayış nə cür "mülkiyyət"in bir növünə çevrilə bilər?

Hüquqşünasların rəyi belədir: bu transformasiya yalnız "mülkiyyət" anlayışını özündə əşyalarla, maddi nemətlərlə yanaşı, qeyri-maddi nemət olan "əqli fəaliyyət nəticələrini" (ƏFN) cəmləşdirir, daha doğrusu, ƏFN-nə aid olan hüquqları da nəzərdə tutur.

**Deməli, "əqli mülkiyyət" əqli fəaliyyət nəticələrinə olan hüquqlardır, yəni "əqli mülkiyyət hüquqlarıdır".**

Heç də təsadüfi deyil ki, əbədi türk heykəli, ulu babalarımızın yadigarı "Qutadqu-bilik"də "*Səadət gətirən – əql deməkdir*" sözləri həkk olunub və bu ifadə ilə müdrik

xalqımız əqli fəaliyyətə, onun tükənməz əhəmiyyətinə ədalətli qiymət verib.

Bir həqiqətdir ki, millətin ən dəyərli sərvəti və varidatı – onun **intellektidir.** Millətin, xalqın intellekti isə öz böyüklüyü və dahiliyi ilə onun ayrı-ayrı adamlarının böyüklüyünü təşkil edən həmin keyfiyyətlərdən ibarətdir. İntellektual dəyərlərin yeganə mənbəyini tarix boyu **yaradıcılıq və yenilikçilik** formalaşdırıb. Bunların üç tükənməz qolu – **elm, ədəbiyyat və incəsənətdir.** Yaradıcılıq və yenilikçilik insanın tükənməz təbii resurslarından əmələ gəlir.

**Deməli, yaradıcılıq və yenilikçilik əqli fəaliyyətin ən yüksək zirvəsidir. Ancaq ƏFN hələ əqli mülkiyyət demək deyil!**

ƏFN-i yalnız obyektiv şəkildə (formada) əks olunduğu halda ƏM-ə çevrilə bilər. Çünki ƏFN-i insanların təbii resursları olmaqla, insan haqları və azadlıqlarıdır.

**Mülki hüquq bu prosesə müdaxilə edə bilməz.** Üstəlik, obyektiv əks olunmuş ƏFN-nin müəyyən ƏM obyektinə çevrilməsi üçün müvafiq meyarları da ödəməlidir.

Məşhur filosof Hegel demişkən,

*“yaradıcılıq məkanında hüquq sərhəd qoymağa qadir deyil”, əks halda “qanun hüququn mahiyyətinə zidd çıxaraq, qeyri-qanuni olardı”.*

Məşhur rus alimi Berdyayevin yazdığına görə,

*“Yaradıcılıq – elə azadlıq deməkdir... Yaradıcılıq həyatın ən dahi sirridir..., yeniliyin əmələ gəlməsi sirridir..., yaradıcılıq sirri elə azadlıq sirri deməkdir”.*

Bir daha qeyd edirəm. **Yalnız əqli fəaliyyətin nəticələri, özü də obyektiv şəkildə (formada) əks olunduğu halda əqli mülkiyyətə çevrilə bilər.** Bunun səbəbi də ondadır ki, obyektiv formaya çevrilmiş ƏFN artıq öz yaradıcısından ayrıla bilir, öz müstəqil həyat dövrünü yaşama-

ğa başlayır və **deməli, özününküləşdirməyə qarşı qorunmalıdır. Məhz bu mərhələdə əqli hüquqlar yaranır.**

**Deməli, cəmiyyətin, dövlətin obyektiv əks olunmuş ƏFN-nin tanınması** (mülki hüququn buna müdaxilə edilməsi) **onları yaradan şəxslərin ƏM-nin müəyyənləşdirilməsi deməkdir. Daha doğrusu, əqli mülkiyyət hüquqlarının (ƏMH) yaranması deməkdir.** "Mülkiyyət" sözünün burada işlənməsi əqli mülkiyyət hüquqlarının heç də ənənəvi əşya hüquqlarından az vacib olmamasıdır.

Bir sözlə, atalar sözündə deyildiyi kimi,

*"Ədaləti qıraqda axtarmamaq üçün özümüz ədalətli olmalıyıq".*

Bizim, **cəmiyyətin yaradıcılara münasibətdə ədaləti – əqli mülkiyyət hüquqların tanınması və qorunmasındadır**.

Məşhur fransız mütəfəkkiri Şatobrianın sözləri ilə desək,

*"Hüquq borcu doğurmur, əksinə [əqli mülkiyyətdə] borc hüququ doğurur".*

Beləliklə, əqli mülkiyyət **tanınır** və qanunlarla **qorunur**.

**2.** "Bütün elm, ədəbiyyat, incəsənət əsərləri və ixtiralar insan dühasından yaranır. Bunlar insanın layiqli həyatı üçün təminat mənbəyidir. Əsərlərin və ixtiraların bütün növlərinin etibarlı qorunması **dövlətin borcudur**".

Bu sözlər ÜƏMT-nın Cenevrədə yerləşən mənzil-qərargahının günbəzində yazılıb və uzun illər rəhbəri olan məşhur alim Arpad Boqşa məxsusdur. Yazı mahiyyətcə və fəlsəfi baxımdan parlaq və anlaşıqlı şəkildə ƏM-in müasir dünyada rol və əhəmiyyətini təsvir edir.

"Əqli mülkiyyət" qısaca və daha dolğun formada: "əqli mülkiyyət hüquqları"nın qorunması dövlətin borcudur və bu hüquqlar qorunur.

Hələ ABŞ-ın 3-cü Prezidenti Tomas Ceferson, öncə ABŞ-ın ilk Prezidenti Corc Vaşinqtonun zamanda, dövlət katibi kimi ABŞ-ın ilk Patent Təşkilatına rəhbərlik etdiyi illərdə qeyd edirdi ki,

*"ideyalar dünya üzrə birindən digərinə maneəsiz yayılmalıdır və heç təsadüfi deyil ki, təbiət onları alova, oda, havaya uyğun olaraq yaradıb. Bu səbəbdən ideyaları məhdudlaşdırmaq və kiminsə mülkiyyətinə daxil etmək düzgün deyil".*

Məşhur Volter də kitablarda yazılanları oda bənzədərək, hamıya məxsusluğunu qeyd edirdi.

*"Dövlət mülkiyyət çərçivəsini, örtüyünü qorumaqla... düha alovunu yanacaq marağı ilə dəstəkləyir"* (A.Linkoln).

Çünki söhbət **"bilik sahəsi və mədəniyyətdən",** bu fenomenin **hüquqla kəsişməsindən gedir.** Əslində istər hüququ, necə ki, mədəniyyəti (geniş mənada) yaratmaq çətindir, hətta mümkün də deyil, onlara varis çıxmaq və qoruyub saxlamaq lazımdır.

**Buradan bir vacib nəticə əldə etmək mümkündür: hüququn yaradıcılıqla təmasda olan biliklər və mədəniyyət sahəsinə müdaxilə etməsi ənənəvi olan maddi əşyalar dünyasına müdaxiləsindən köklü surətdə fərqlənir**, çünki burada yaranan mülkiyyət – **əqli mülkiyyət** bilik və mədəniyyətə aid olanları qoruyur. Beləliklə, **bu sahəyə hüququn müdaxiləsi incəlik və ustalıq tələb edir.**

Bir tərəfdən yaradanın maraqlarını güdərək, onu stimullaşdıraraq, mülkiyyəti kimi qorumaq, digər tərəfdən cəmiyyətin mənafeyini təmin edərək, əlçatımlığa yaşıl işıq yandırılmalıdır.

Bəs hüququn bu sahəyə müdaxiləsi hansı çərçivədə olmalıdır? XIX əsrin ən tanınmış hüquqşünaslarından olan F. fon Savinyi liberal hüququn əsas prinsipini gözəl izah etmişdir:

*“Hüquq – sərhədlərini dəqiq müəyyən edən elə qaydadır ki, onun yaratdığı dairəyə hər hansı fərdin həyat və fəaliyyəti istənilən təcavüzdən azad olsun”.*

ƏM-ə aid olan hüquqi nəzəriyyələri sistemləşdirsək, iki növünə gətirmək mümkündür:

- xüsusi (fərdi) hüquq, hansının ki, əsas ehkamı: **hüquqlar insana onun təbiətindən verilir**;
- kütləvi hüquq, hansının ki, əsas ehkamı: **hüquqları insana dövlət verir**.

Biz, ƏM-ə münasibətdə xüsusi hüquq mövqeyindəyik. Çünki məşhur filosof fon Xayekin dediyi kimi, yalnız bu yanaşma **“sərbəstliyə və azadlığa real imkanlar yaradır”.** Bununla belə, kütləvi hüquqdan istifadə ƏM-in xüsusi hüquq çərçivəsində qorunmasının zəmanəti, hüquqların pozulduğu halda **bərpasına xidmət etməsidir. Çünki, əgər “siyasət mümkün olanın sənətidirsə, hüquq isə zəruri olanların elmidir**”. Üstəlik, bilik və mədəniyyət sahəsinin hüquqi tənzimlənməsi hər zaman mənəviyyata gətirir. **Hüquq isə,** bilirsiniz ki, “**mənəviyyatın yalnız minimumu kimi çıxış edir”.**

Odur ki, ƏFN-ə hüququn müdaxiləsi, ƏMH-nın yaranması tarix boyu verilən hüquqların məzmun, həcm və qorunma müddəti ilə yanaşı, istisnalar və məhdudiyyətlər kompromislər məcmusu olmuşdur.

# I. ƏQLİ MÜLKİYYƏTİN (ƏM) YARANMASI, ƏQLİ FƏALİYYƏT (ƏF), ƏQLİ FƏALİYYƏT NƏTİCƏLƏRİ (ƏFN) VƏ BİLİKLƏR DÖVRANI

1. ƏM bilikdən əmələ gəlir və bilik mənbəyinə çevrilir.

2. Biliklər dövranı: ƏF → ƏFN → ƏM.

3. Biliklərin qeyri-maddi və maddi nemətlər olması.




**Daha dəqiq ifadə etsəm, əqli mülkiyyət "biliklər dövranının həm xammalı, həm də məhsuludur".** Burada başlıca proses insanın əqli fəaliyyətidir. Bu fəaliyyətin nəticələri beyin, zəka, düşüncə məhsulu olduğuna görə, "duyulmayan", ideal xarakter daşıyır. Deməli, qeyri-maddi nemətdir. **Qorunma ƏFN-ə, qeyri-maddi obyektə şamil olunur.** Lakin mütləq bir əlaməti olduğu halda ƏFN obyektiv formada ifadə və əks olunmalı, maddi fiksə olunmalıdır. Yalnız o zaman tələb olunan meyarlara uyğun olaraq, o ƏM obyektinə çevrilə bilər.

**Beləliklə, obyektiv əks olunmuş ƏFN ƏM-ə çevrilir, yaradıcı müstəsna hüquqlar əldə edir, ƏM obyekti üzərində sahibinin hökmdarlığı təmin edilir.**

Buradan ƏM-in **əsas prinsipi** nəzərə çarpır.

ƏFN fərdin əqli fəaliyyətinin nəticəsində yaranmış qeyri-maddi obyektdir. İdeal yaradılanlar hər hansı daşıyıcıda maddiləşir və bununla da obyektivləşir, nəticədə isə hüquqi qorunma verilən obyektiv ifadə olunmuş (ilkin olaraq, qeyri-maddi olan) ƏFN ƏM obyekti olur. **Bu, mahiyyətcə o deməkdir ki, ƏM obyektiv iki hissədən – "obyektiv ifadə olunmuş" və "qeyri-maddi" ƏFN-dən ibarətdir, yəni ƏM-in ikili təbiəti ilə rastlaşırıq.**

Maddi ifadə olunmuş qorunan ƏFN, yəni tərkibində ƏM obyektləri olan maddi əşya və əmtəələr mülki (iqtisadi) dövriyyədə iştirak edirlər. Özü də ƏM onun yaradıcısına məxsusdur, eyni zamanda tərkibində əqli mülkiyyət olan həmin əmtəə tamamilə başqa şəxsə məxsus ola bilər.

**Beləliklə, ƏM-in ikili prinsipi o deməkdir ki, qeyri-maddi ƏM obyektləri yalnız maddi obyektlərdə, o cümlədən əksini tapdığı əmtəələrdə obyektiv mövcud olur.**

Buradan çıxır ki, qeyri-maddi ƏM obyektinin hüquq sahibi onun mülkiyyətçisi olaraq, vacib deyil ki, həmin ƏM obyektinin əksini tapdığı əmtəənin də sahibi olsun. Bu real həyatda da sübut olunur, belə ki, ƏM obyektinin yaradıcısı, bir qayda olaraq, onu özü üçün deyil, geniş ictimaiyyətin istifadəsi üçün yaradır.

**3. İndi isə ƏM-in nədən ibarətdir, yəni onun obyektləri hansılardır?**

3.1. ƏM üç tərkib hissədən ibarətdir:

a) elm, ədəbiyyat və incəsənət əsərlərinə aid **müəlliflik hüququ.** Bura yaxın olan əlaqəli hüquqlar obyektləri (ifalar, fonoqramlar və televiziya verilişləri) də qoşulur;

b) ixtiralara, o cümlədən sənaye nümunələri və faydalı modellərə aid olan **patent hüququ**. Bura əmtəə nişanları və coğrafi göstəricilər də aiddir. **Bunlar ənənəvi əqli mülkiyyətdir**: **əqli mülkiyyət və sənaye mülkiyyəti**;

c) qeyri-ənənəvi ƏM (folklor nümunələri, ənənəvi biliklər, qeyri-kreativ məlumat topluları, inteqral sxem topologiyaları və s.).

3.2. **Bunları ayıran və fərqləndirən** sərhəd nədən ibarətdir?

- ♦ hüquqların nə zamandan qorunmasının başlanması, onların əldə edilməsi (qeydiyyatın zəruri və könüllü olub olmaması);
- ♦ müxtəlif meyarlara uyğunluğu;
- ♦ hüquqların həcmi;
- ♦ nəyin qorunması (forma və ya məzmun) və s.

Hüququn verilməsi cəmiyyətin digər şəxsləri üzərinə vəzifələr qoyulması deməkdir. Ancaq cəmiyyətə bu sistemdən gələn üstünlüklər **kompensasiya** şəklində çıxış edir. Bu kompensasiya cəmiyyətin aldığı xeyir və faydadır. Bu aydın göstərilməlidir.

Məşhur filosof İyeremiya Bentamın dediyi kimi:

"Qanun onu yerinə yetirənlər üçün [yəni hamı üçün] ilk növbədə aydın olmalıdır".

Belə ki, cəmiyyətin aldığı xeyir və fayda dövlət tərəfindən dərk edilərək, bu hüquqların tanınmasına və qorunmasına gətirib çıxarır. **Cəmiyyətin hüququn mövcudluğuna aid istəyi və marağı, mədəniyyətin inkişaf məqsədlərinə uyğunluğu "cəmiyyət – yaradıcı şəxsiyyət" tərəflərinin mənafelərinin tarazlığına gətirmiş, sosial kontrakt formasında ƏM institutunu formalaşdırmışdır, onun qanunvericilik bazasını "kompromislər məcmusuna" çevirmişdir.**

**4.** Bir daha təkrarlayıram. **ƏM mövcud olan biliklərdən əmələ gəlir və yeni biliklərin yaranması ilə tamamlanır, bilik mənbəyinə çevrilir. Daha dəqiq ifadə etsəm, əqli mülkiyyət "biliklər dövranının həm xammalı, həm də məhsuludur".**

Burada başlıca proses insanın əqli fəaliyyətidir. Bu fəaliyyətin nəticələri beyin, zəka, düşüncə məhsulu olduğuna görə, "duyulmayan", ideal xarakter daşıyır. Deməli, **qeyri-maddi nemətdir**. **Qorunma əqli fəaliyyət nəticəsinə, qeyri-maddi obyektə şamil olunur.** Lakin mütləq bir əlaməti olduğu halda ƏFN obyektiv formada ifadə və əks olunmalı, maddi fiksə olunmalıdır. Yalnız o zaman tələb olunan meyarlara uyğun olaraq, o əqli mülkiyyət obyektinə çevrilə bilər. **Beləliklə, obyektiv əks olunmuş ƏFN ƏM-ə çevrilir, yaradıcı müstəsna hüquqlar əldə edir, ƏM obyekti üzərində sahibinin hökmdarlığı təmin edilir.**

**Əqli mülkiyyət obyektləri intellektin, əqlin məhsulu – biliklərlə və dahi Eynşteynin fikrinə əsasən, biliklərdən üstün olan təxəyyüllə sıx təmasdadır.**

Göründüyü kimi, iki vacib "əql" və "mülkiyyət" konsept-anlayışların birləşməsi təsadüfi deyil: ƏFN-lərin yaradıcılıq və yenilikçilik mövqeyindən mühüm olanları obyektiv əks olunduğu halda yaradanın mülkiyyəti hesab edilir və mülkiyyətə xas olan əlamətləri verilən müstəsna hüquqlar daşıyır.

**"Əqli mülkiyyət" termini 1967-ci ildən ÜƏMT-nı təsis edən Konvensiyasında tam qəti yerini tutmuşdu və Azərbaycanın Konstitusiyasında da öz əksini tapıb.**

Əqli mülkiyyət müvafiq meyar və şərtləri ödəyən sadalanma prinsipi əsasında ƏM obyektlərindən ibarətdir. Burada müxtəlif sahə bilikləri birləşdiyindən **ƏM anlayışı**

**sinkretik xarakter daşıyır. Bu fenomen məzmunu, forması və təyinatı vasitəsilə müəyyən edilir.**

Belə ki, ƏM məzmununa görə menecment, texniki-mühəndis və humanitar-mədəni anlayışdır. Formasına görə ƏM hüquqi konstruksiyadır və təyinatına görə müstəsna olaraq iqtisadi anlayışdır.

**ƏM-in qorunmasının vacibliyi ilə bağlı misal musiqi alətlərinin icadı ilə bağlıdır.**

Saksofon orkestrin yeganə patentli alətidir. Ona Fransada 1846-cı ildə Adolf Saks tərəfindən patent alınmışdır. Sonrakı təxminən 70 il ərzində saksofona aid 14 patent alınmışdır, onlardan bəziləri elə Saks tərəfindən, bəziləri isə özlərini rəqib adlandıran digərləri tərəfindən alınmışdır. Bu patentlər saksofonun müştük hissəsinin hal-hazırda bildiyimiz kimi olmasına, alt saksofonun, saksofonun digər müxtəlif növlərinə və saksofonun özünün təkmilləşdirilmiş mexanizminin yaranmasına gətirib çıxarmışdır. İndi isə bu texnologiya ictimai sərvətlər, varidat sahəsində 100 ildən artıqdır ki, mövcuddur, **patentlər açıqlanıb və hər kəs saksofonu istifadə və istehsal edə bilər**.

İndi isə bunun skripkanın təkamülü ilə müqayisə edilməsi maraqlı və ibrətamiz olardı. İtaliyada, Kremonda XVII və XVIII əsrlərdə skripkanın istehsal texnologiyası ailə sirri idi və onu nəsildən-nəslə sirr olaraq ötürürdülər. Bunun nəticəsidir ki, indiyədək heç kim dünyada məşhur Stradivari, Qvarneri və digər ən yaxşı ustaların skripkalarının necə istehsal edildiyini bilmir. Onların istehsalının sirri zamanla ailə sirlərində və onların öz biliklərinin bir-birinə ötürülməsi nəticəsində hansısa mərhələdə tükənmiş və itirilmişdir.

**5.** İntellektin və biliklərin xüsusi əhəmiyyətini qeyd edərək, XX əsrin görkəmli filosofu Karl Popper onların istənilən maddi əşyadan nə qədər fundamental və dəyərli

olduğunu nümayış etdirən çox gözəl bir misal gətirmişdi. Filosof belə bir situasiyanı təsəvvürə gətirməyi təklif edirdi: sənaye və sosial strukturlar da daxil olmaqla, tutaq ki, bizim iqtisadiyyatımız məhv edilmiş və ya yox olmuşdur. Lakin yalnız elmi və mədəni biliklər qorunub saxlanmışdır. K.Popper yazırdı ki, bu halda bəşəriyyətin yeni nəsilləri intellekt və qorunub saxlanmış biliklər hesabına yox olmuş maddi və sosial obyektləri qısa müddət ərzində bərpa edə biləcəkdir. Bununla yanaşı, filosof qeyd edirdi ki, əks halda, yəni bütün yığılmış biliklər məhv olmuşdursa və yalnız maddi dünya qorunub saxlanmışdırsa, o zaman bu mənzərə bizə sonradan vəhşi tayfaların məskunlaşdığı tərk edilmiş sənaye dünyasını xatırladırdı.

Sonda isə ƏM-in fəlsəfi, hüquqi və iqtisadi mənası haqqında danışaq:

- **ƏM anlayışının fəlsəfi mənası:**

ƏM fəlsəfəsi bəşəriyyətin yaradıcı və maddi baxımdan daha yaxşı yaşamaq istəyindədir, insan cəmiyyətinin bu arzulara nail olmaq imkanları və bacarığındadır. İnsanların bu tərzdə həyatı daşımaq hüququna layiq olmasındadır (A.Boqşun bu sözləri ÜƏMT-nın Cenevrədə yerləşən mənzil-qərargahının günbəzində əksini tapmışdır).

- **ƏM anlayışının hüquqi mənası:**

Bu baxımdan ƏM fərdi (xüsusi) hüquq kimi tanınır və onu yaradan şəxslərin mülkiyyəti kimi qorunur.

- **ƏM anlayışının iqtisadi mənası:**

Bu isə ƏM-in təkrarlanan vəsait olmasından irəli gəlir. Danılmazdır ki, ƏM-in başlıca dəyəri onun topladığı bilik və məlumatlar mənbəyindən irəli gəlir.

**Lakin** öz əksini müxtəlif məhsul və əmtəələrdə taparkən, ƏM sənayenin, iqtisadiyyatın vacib amilinə çevrilir, ticarətin ən tez dövriyyəli məlumatı kimi özünü büruzə verir.

**Aydındır ki**, ƏM bilavasitə gəlir gətirmir, amma vasitəli yolla, hüquqların keçməsi ilə bazarda mülki dövriyyənin predmetinə çevrilməsi ilə gəlir gətirmək imkanlarını qazanır.

**Qorunma** isə qanuni istifadə ilə bağlı riskin minimal olmasına, gəlir əldə etmək üçün isə minimal imkanlar şəraitini yaratmasını mümkün edir.




Göründüyü kimi, müəllif-hüquq obyektləri istər elmi-texniki, istərsə də humanitar dairələrə aid edilir.

**Müasir dünyada, rəqəmli erada ƏM getdikcə iqtisadi artımın drayverinə çevrilir və bu ƏM-in müasir "biliklər cəmiyyət"ində innovasiyalı, kreativ iqtisadiyyatla dəyişmiş rolu ilə bağlıdır, o cümlədən:**

- **Mikroiqtisadi səviyyədə dəyişikliklər;**
- **Makroiqtisadi səviyyədə dəyişikliklər.**

**ƏM-in yeni konteksti onu biliklərə əsaslanan iqtisadiyyatın dominantına, rəqəmsal cəmiyyətin vacib alətinə və mədəni irsin təhlükəsizliyinin təminatçısına**

**çevirib.** Təhlillər göstərir ki, son onilliklər ərzində sərvətlərin yaranma mərkəzi maddi aktivlərdən, kapitaldan qeyri-maddi aktivlərə, intellektual kapital tərəfə yönəlir. Bununla rəqabət fokusu dəyişir, investisiya axınlarının vektoru ƏM-ə istiqamətlənir.

**Belə ki, mikroiqtisadi səviyyədə** ötən əsrin 80-ci illərində 5% payı olan qeyri-maddi aktivlər (əsasən ƏM ilə qorunan aktivlər) hal-hazırda «S&500» fond indeksinə daxil olan korporasiyalarda bu rəqəm 80%-ə qədər yüksəlib.

**Makroiqtisadi səviyyədə dəyişikliklər** isə ona gətirib ki, əqli mülkiyyət nöqteyi-nəzərindən tutumlu sahələr inkişaf etmiş ölkələrdəki ÜDM-in yarısına qədər çatıb. 2017-ci ilin fevral ayında açıqlanan ABŞ-ın "U.S.Chamber International IP Index" "The Roots of Innovation" Hesabatı ƏM-in iqtisadiyyata müsbət təsirini təsdiqləyir.

Dünya Bankının (2012-ci il) hesabatına əsasən, başında ƏM dayanan «bilik iqtisadiyyatı» İndeksinə (EKEI&KI Indexes, 2012) görə, Azərbaycan 146 ölkə sırasında 79-cu yeri tutur.

Azərbaycanda bilik iqtisadiyyatına aid olan sahələrin ÜDM-dəki payı 8% civarındadır (əsasən «kreativ iqtisadiyyat hesabına: 5,1%»), Rusiyada 15%, Avropanın inkişaf etmiş ölkələrində – 35%, ABŞ-da – 45%.

ƏM-in dəyişmiş təsir mühiti eyni dərəcədə ƏM-ə və onun roluna olan münasibətdə bizim düşüncə tərzimizin dəyişilməsini tələb edir.

| Bilik iqtisadiyyatına aid olan sahələrin ÜDM-dəki payı | |
|---|---|
| Azərbaycan | 8% |
| Rusiya | 15% |
| Avropa | 35% |
| ABŞ | 45% |

Hörmətli iştirakçılar!

Ölkəmizin iqtisadi siyasəti ilə bağlı istiqamətləri və nailiyyətləri və ƏM nəticələri dərin bağlantıya malikdir. Odur ki, ƏM sisteminin qarşısında duran vəzifələr dövlət başçısının innovasiyalı inkişafla bağlı yürütdüyü iqtisadi islahatlar siyasəti ilə formalaşdırılır. Bununla da ƏM bu siyasətin təsirinə və innovativ inkişafına adekvat xidmət etməlidir, investisiyaların cəlb edilməsində və innovasiyalara dəstək verilməsində real aktora çevrilməlidir.

ƏM əhəmiyyətinin və faydasının artırılmasında əsas prinsip cənab Prezidentin iqtisadi islahatlarının uğurla həyata keçirilməsinə xidmət etməkdədir, cəsarətlə keçirilən tədbirlərinə dəstək olmasındadır, elmi-tədqiqat nəticələrindən kommersiyalaşma potensialı olan texnologiyaların seçilməsi və tətbiqindədir. Bununla da ƏM-in investisiyaların cəlb edilməsi və innovasiyaların həyata keçirilməsində fəal aktora çevrilməsi, öz-özlüyündə abstrakt vasitədən sosial-iqtisadi uğurların aparıcı amilləri sırasında yerini tutmasıdır. Bir sözlə, **ƏM və innovasiyalı inkişaf cütlüyünə məxsus olan emercent effektivliyə nail olmalıyıq.**

Müasir texnologiyaların sıçrayışı dövründə və innovasiyaların "rəqəmsal imperaiv" zamanında innovativ inkişaf – **tədqiqatların nəticəsində əldə edilən biliklərin və texnologiyaların, investisiyaların və ƏM-in yaratdığı insan kapitalının ekosistemidir**. Odur ki, tanınmış mütəxəssislərin fikrinə əsasən, «gələcəkdə əqli mülkiyyətin beynəlxalq arxitekturası və formasının texnologiyalar tərəfindən getdikcə daha çox diktə ediləcəyi və idarə edilməsi qaçılmazdır». Bununla da texnologiyaların ƏM-in mövcud landşaftına kardinal təsiri və öz növbəsində ƏM-in buna qarşı çıxmaması, əksinə, ona uyğunlaşması vurğulanmalıdır.

Zamanın çağırışlarına uyğun olaraq, ƏM-in innovasiyalarla bağlı qolu, sənaye mülkiyyəti sahəsinə yeni paradiqma mövqeyindən yanaşılmalı, onun fəaliyyəti daxili göstəricilərlə ölçülən çərçivədən çıxmalıdır. Eyni səpgidə, ixtira fəaliyyəti Patent təşkilatına müraciətlə kifayətlənməməlidir. Səylər real iqtisadiyyatda mütləq dövlət yardımına söykənməyən avtonom, müstəqil hərəkətverici qüvvələrin oyadılmasına yönəlməli, elə qüvvələrin ki, real iqtisadiyyatı innovasiya tipli iqtisadiyyata çevirməyə qadir ola bilsin. Bu səbəbdən **ixtira fəaliyyəti elə stimullaşdırılmalıdır ki, yaradılan biliklərin real satılan məhsullara çevrilməyi təmin edilsin**.

## Əqli mülkiyyətin milli qanunvericilik bazası və sərəncamçılığı




ƏMH qoruyan 2 müdafiə xətləri:

I xətt – 8 qanun və müvafiq Məcəllələrin müddəaları.

II xətt – haqsız rəqabət və kommersiya sirri haqqında qanunlar.

**Əqli mülkiyyətin 3 qolu:**

a) Müəlliflik və oxşar (*o cümlədən əlaqəli*) hüquqlar,

b) Patent hüququ (*əmtəə nişanları daxil olmaqla*),

c) Qeyri-ənənəvi hüquqlar (*folklor* (ƏMH) *və ənənəvi biliklər* (ƏB)).

ƏMH = istifadəyə müstəsna hüquqlar (*hüquq sahibinin hökmdarlığı*), müəyyən mənada maddi dünyadakı «mülkiyyət» anlayışının analoqu.

ƏMH = əmlak (*kommersiya*) hüquqları – (*müddətli*) + qeyri-əmlak (*şəxsi*) hüquqlar – (*müddətsiz*).

**Əmlak hüquqları bütün növ ƏM obyektlərinə məxsusdur, qeyri-əmlak hüquqları yaradıcılıq meyarı əsasında – bütün növ əsərlərə (*müəlliflik hüququ*), ifalara (*əlaqəli hüquqlar*), ixtiralara, faydalı modellərə, sənaye nümunələrinə (patent hüququ) və inteqral sxem topologiyalarına (*müəlliflik hüququna oxşar hüquqlar*).**

Qeyri-ənənəvi hüquqlarda (ənənəvi mədəni nümunələr və ənənəvi biliklər) əmlak və şəxsi hüquqlar ayrılmazdır və Azərbaycan xalqının mülkiyyəti kimi təsbit olunur.

## Əqli mülkiyyət mülki-hüquq məkanında

ƏM tanınması səbəbi: cəmiyyətin xeyir və faydasının götürüldüyünü dövlət tərəfindən dərk edilməsi (*yalnız yaradıcılara hörmət və ehtiram deyil*).

ƏM tanınması prinsipi: tarazlıq siyasəti, kompromislər məcmusu.

ƏM – ƏFN qorunması məqsədilə onların yaradıcılarına və hüquq sahiblərinə verilən müstəsna hüquqlardır.

**Azərbaycanın ƏM doktrinası: ƏM – müstəqil institutu, mülkiyyət hüququnu tamamlayan mülkiyyətdir.**

**ƏM – Mülki hüququn tərkib hissəsi (*əmlak dəyəri olan qeyri-maddi nemət* (ƏFN)).**




**Şəxsi qeyri-əmlak hüquqları:**
**kontinental və ingilis-amerikan sistemi**




Mülki Məcəllə və ƏM şəxsi qeyri-əmlak hüquqları.






**Problem:** Mülki Məcəllədə göstərilən ƏM hüquqlarından **ayrılmaz olan** şəxsi qeyri-əmlak hüquqları nəzərdə tutulur, yoxsa nəzərdə tutulmur?

**Mülki Məcəllənin 135.5 (əvvəlki 137) maddəsində "qeyri-maddi əmlak nemətləri" anlayışı müəyyənləşdirilmir. Şərhdən isə belə çıxır ki, burada ƏMH-un yalnız ayrıla bilən əmlak hüquqları nəzərdə tutulur.**

| № | Klassik şəxsi qeyri-əmlak hüquqlar<br>A | Təbiəti və əsas xüsusiyyətləri | Müəllifin şəxsi qeyri-əmlak hüquqları<br>B | Əsas xüsusiyyəti |
|---|---|---|---|---|
| 1. | Şəxsiyyətin fərdiləşməsi ilə bağlı, o cümlədən<br>- ad hüququ<br>- şərəf və ləyaqət hüququ<br>- işgüzar nüfuz hüququ | Mütləq hüquq | - Müəlliflik hüququ<br>- ad hüququ<br>- şöhrətinə hörmət edilməsi hüququ | Müstəsna hüquq |
| 2. | Şəxsiyyətin fiziki mövcudluğu və əmin-amanlığı ilə bağlı | Şəxsiyyətin vəfatı ilə bitə bilər | - Açıqlama hüququ | Müddətsizdir |
| 3. | Şəxsiyyətin mənəvi-sosial əmin-amanlığı ilə bağlı | | | |

Müəlliflik hüququnun şəxsi qeyri-əmlak hüquqları əmlak (iqtisadi) hüquqları kimi müstəsna hüquqlardır.

Müstəsna hüquqlar təbiətinə görə mütləqdirlər, lakin əksinə yox.

Müstəsna hüquqlar – xüsusi hüquq kateqoriyası kimi hüquq sahibinin inhisarçılığını, ƏM obyekti üzərində hökmdarlığını və sahibinin müstəsna statusunu təmsil edir.

Hüquqların müstəsnalığı mütləqliyin digər tərəfidir: bu hüquqlardan istifadə ya hüquq sahibi tərəfindən, və ya onun birbaşa icazəsi ilə, ya da qadağa qoyulması ilə həyata keçirilir.

Hörmətli seminar iştirakçıları!

Müstəqil inkişaf yollarını daim arayan və buna nail olan Azərbaycan bu gün ölkə rəhbərliyinin təşəbbüsü ilə başlamış və müsbət inkişaf üçün bütün imkanları optimallaşdırmağa yönələn islahatların yeni mərhələsindən keçir və yeniləşmə cəmiyyətin həyatının bütün sahələrini əhatə edir.

İslahatçı ölkələrin avanqardına daxil olan Azərbaycan "Doing Business-2019" reytinqinə görə 190 ölkə arasında 25-ci yerdədir. Yeni dərc olunmuş "Doing Business - 2020" hesabatında Azərbaycan islahatçı 20 ölkə sırasına daxil edilib.

Dünya İqtisadi Forumunun Qlobal Rəqabətqabiliyyətlilik İndeksi (GCI) - 2019 hesabatında Azərbaycan qanunvericiliyin effektivliyinə – 13-cü, hökumətin dəyişikliklərə olan reaksiyasına – 5-ci və hökumətin gələcəyə yönəlmiş fəaliyyətinə, uzaqgörənliyinə görə 10-cu yerləri tutur.

Bu cür kardinal dəyişikliklər Azərbaycanın yeniləşməsinin növbəti, dördüncü sənaye inqilabının fəal iştirakçısı, sosial-iqtisadi islahatların reallaşdırılmasına malik olmasının, innovativ inkişaf yolunun tərkib hissəsi kimi ƏM sahəsinin inkişafında və əqli mülkiyyətin qorunmasında öz əksini tapır. Belə ki, son Rəqabətqabiliyyətlilik İndeksinə əsasən, Azərbaycan 141 ölkə arasında "mülkiyyət hüquqlarının qorunması" üzrə 37-ci yerdə və "əqli mülkiyyətin qorunması" göstəricisinə görə 30-cu yerdə qərarlaşıb. **Burada diqqəti cəlb edən odur ki, 2015-2016-cı illərdən, yəni islahatların yeni mərhələsindən başlayaraq, bu göstərici ardıcıl olaraq yaxşılaşır. GCI-də 92-ci yerdən 2016-2017-ci illərdə – 71-ci, 2017-2018 – 37-ci, sonra 36-cı və nəhayət 2019-cu ildə 30-cu yerdə qərarlaşıb.**

**GCI-də Azərbaycanın “əqli mülkiyyətin qorunması” və “adambaşına düşən ÜDM” göstəriciləri**




- adambaşına düşən ÜDM-in göstəricisi 2019-cu il üçün proqnoz kimi verilib.

**Azərbaycanda** (dünyada qəbul edildiyi kimi) **ƏMH-nın qorunması və təminatı səviyyəsi ilə adambaşına düşən ÜDM göstəricisi arasında güclü müsbət əlaqə mövcuddur**.

Bütün bunlar Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin islahatlarının dərinləşdirilməsinin qiymətləndirilməsidir, islahatların davamlılığına verilən beynəlxalq dəyərdir, bir tərəfdən dövlət başçımızın iqtisadi strategiyasının doğru yolda olmasıdır, digər tərəfdən institusional islahatların həyata keçirilməsinin nəticəsidir.

Dövlət başçısının göstərişlərindən irəli gələn çevik, daha yığcam və daha məqsədyönlü struktur vasitəsilə sahələrin idarə edilməsi, şəffaflığın, səmərəliyin və cavabdehliyin təmin olunması məqsədilə Əqli Mülkiyyət Agentliyi yaradılıb, onun mandatı həm müəlliflik hüquqları və əlaqəli hüquqlar sahəsini, həm də sənaye mülkiyyəti sahəsini əhatə edir. Agentliyin tabeliyində iki mərkəz – Pa-

tent və Əmtəə Nişanlarının Ekspertizası və Əqli Mülkiyyət Hüquqlarının Təminatı Mərkəzləri yaradılıb, Respublika Elmi-Texniki Kitabxanası onun tərkibinə verilib.




**Beləliklə, aparılmış islahatlar nəticəsində özündə vəhdət təşkil edən üçlük formulu: koqnitivlik, kreativlik və kommersiyalaşmanı birləşdirən özünəməxsus idarəetmə modeli aktuallaşmışdır.**

Bu ilin oktyabr ayında ÜƏMT-nın Baş Assambleyasında Azərbaycan Büdcə və Proqram Komitəsinə seçilib, Koordinasiya Komitəsində təmsil olunacaq və Azərbaycanın nümayəndəsi ilk dəfə olaraq, müəllif hüququ üzrə 1886-cı ildən qüvvədə olan və 170 ölkəni birləşdirən məşhur Bern Konvensiyası Assambleyasının sədri vəzifəsinə layiq görülüb.

**ƏM sisteminin qarşısında duran vəzifələr ölkənin innovasiya siyasəti ilə müəyyən edilir və ölkədə həyata keçirilən iqtisadi islahatlara xidmət etməlidir, cəsarətlə keçirilən tədbirlərinə dəstək olmasındadır, elmi-tədqiqat nəticələrindən kommersiyalaşma potensialı olan texnologiyaların seçilməsi və tətbiqindədir.** Bununla da ƏM investisiyalarının cəlb edilməsi və innovasiyaların həyata keçirilməsində fəal aktora çevrilmək, öz-özlüyündə abstrakt vasitədən sosial-iqtisadi uğurların aparıcı amillər sırasında yerini tutmaqdır. Bir sözlə, **ƏM və innovasiyalı inkişaf cütlüyünə məxsus olan qarşılıqlı emercent effektivliyinə nail olmaqdır**.

# II. ƏQLİ MÜLKİYYƏT STATİSTİKASINDAN

## Azərbaycan üzrə (2010-2017-ci illər) ixtiralarla bağlı mütləq göstəricilərin dinamikası




## Azərbaycan üzrə (2017-2019-cu illər) ixtiralarla bağlı mütləq göstəricilərin dinamikası



## Azərbaycan üzrə (2010-2017-ci illər) ixtira və patent aktivliyi əmsalları




## Azərbaycan üzrə (2017-2019-cu illər) ixtira və patent aktivliyi əmsalları



**Azərbaycan üzrə (2017-2019-cu illər) ixtira potensialının reallaşdırılması əmsalının dinamikası**
*(verilmiş patentlərin daxil olmuş iddia sənədlərinə nisbəti)*




**Azərbaycan üzrə 2018-2019-cu illərdə rezidentlərin qüvvədə olan ixtira patentlərin paylanması**



# Qeydiyyatdan keçirilmiş müəllif-hüquq obyektləri






## Qeydiyyatdan keçirilmiş əsərlərin tərkibi (1996-2019-cu illər)




## Azərbaycanın kreativ industriyasının, o cümlədən müəlliflik hüququna əsaslanan sahələrin ÜDM-də payı



Əqli Mülkiyyət Agentliyində aparılan təhlil və hesablamalar göstərir ki, Azərbaycanın ÜDM-də kreativ sənayenin payı getdikcə artmaqdadır. Son 8 ildə ölkənin ÜDM-də kreativ sənayenin payı 2010-cu ildə 3,5%-dən 2018-ci ilin 1 yanvarına olan vəziyyətə görə 5,1%-ə çatmış və hazırda inkişaf etmiş ölkələr səviyyəsindədir. Müəlliflik hüququna əsaslanan sahələr 8 il ərzində 2,0%-dən 2,9%-ə çatmışdır. Bu isə müəllif hüququ sahəsinin inkişafının əsas göstəriciləridir. 2018-ci ildə Azərbaycanda müəlliflik hüququna əsaslanan sahələrdə istehsalın həcmi 4096,3 mln. manat təşkil etmişdir.

# III. ƏQLİ MÜLKİYYƏT HÜQUQLARININ TƏMİNATI VƏ MƏHKƏMƏ-HÜQUQ İSLAHATLARI

**Müasir dövrdə Azərbaycanın inkişafı, o cümlədən ƏM sahəsində imkan verir ki, yeni paradiqma, yeni baxış mövqeyindən diqqətimizi zamana uyğun olan əsas məqsədlərdən birinə – hüquqların müdafiəsinin təminatına (enforcement) yönəldək. Biz sizi, hakimləri birgə işləməyə dəvət edirik.**

Bunun üçün dövlət başçısının təşəbbüsü ilə aparılan məhkəmə-hüquq sistemindəki islahatların dərinləşdirilməsi hüquqların təminatında yeni üfüqlər açır.

Bununla yanaşı, ÜƏMT məhkəmə-hüquq sahəsində daha fəal olan dünya ölkələrinin ƏM sahəsindəki işlərə dair ən vacib məhkəmə qərarlarına həsr olunmuş yeni nəşrlərin ilk buraxılışını dərc etməyə başlayıb. “ÜƏMT-nın əqli mülkiyyət sahəsində məhkəmə qərarları Toplusu” adlı yeni nəşrlər seriyası, Təşkilatın Məhkəmə İnstitutu hazırlanır və müəyyən bir ölkə və ya mövzu nümunəsində ƏM-ə dair mübahisələrin həlli yanaşmalarını və tendensiyalarını təsvir etmək məqsədi daşıyır.

ÜƏMT-nın Baş direktoru Frensis Qarri yeni nəşrə aid bildirib ki, ƏM-in müasir vəziyyətində “ixtiraçılar və ƏM ekosisteminin digər iştirakçıları həll olunmamış problemlərin nizamlanması üçün məhkəmələrə daha çox müraciət edirlər, bu da məhkəmə sisteminin ölkələrin ƏM normativ-hüquqi bazasının inkişafında və qlobal iqtisadiyyat çərçivəsində getdikcə daha vacib rol oynamağa başladığını göstərir”.

ƏM sistemi dəyişir, hüquq texnologiyalara özünü çatdıra bilmir. Odur ki, məhkəmə presedentlərinin mühümlüyü artır.

Hüquqların təminatı Əqli Mülkiyyət Agentliyinin diqqət mərkəzindədir. Agentliyin 960 nömrəli “Qaynar xətt”i və ictimai əsaslarla fəaliyyət göstərən “Hüquq məsləhətxanası” il ərzində müəlliflərin, digər hüquq sahiblərinin və sahibkarların istifadəsində olmuş, onların **əqli mülkiyyət məsələləri üzrə orta hesabla hər il 1500-dən artıq** müraciət və sorğularına baxılır, qaldırılan məsələlərin həllində, həmçinin iddia ərizələrinin tərtib edilməsində köməklik göstərir. Bunlar qeyri-yurisdiksiyalı hüquqların təminatıdır.

Agentliyin nümayəndələri 2018-ci ilin sentyabr ayından 2019-cu ilin dekabr ayının 1-dək ümumilikdə 35 iş üzrə müxtəlif məhkəmə instansiyalarında keçirilmiş 120-dən çox məhkəmə iclaslarında iştirak etmiş, hər bir iş üzrə rəy bildirmişdir. Deməli, Agentliyin hüquqşünaslarının kifayət qədər məhkəmə təcrübəsi vardır.

Bununla yanaşı, struktur islahatları çərçivəsində Agentlikdə kvaziməhkəmə - Apellyasiya şurası yaradılıb və fəaliyyət göstərir. Bu ana qədər Apellyasiya şurasına sənaye mülkiyyətinə aid 185 müraciət daxil olmuşdur, onlardan 164 işə münasibətdə artıq qərar qəbul edilmişdir.

Hörmətli dostlar, məhkəmə nümayəndələri!

Məhkəmə-hüquq sistemində kardinal dəyişikliklər gözlənilir. Azərbaycan Respublikasının Prezidentinin məhkəmə-hüquq sistemində islahatların dərinləşməsinə aid fərmanının icrasına dair ilk qanunvericilik aktları paketi bu ilin iyul ayında qəbul olunaraq, islahatların institusional komponentlərini əhatə etmiş və bu dəyişikliklər 2020-ci ilin yanvarın 1-dən qüvvəyə minəcək. İslahatlara əsasən, ixtisaslaşmış məhkəmələrin iki sisteminin – inzibati məhkəmələr və kommersiya məhkəmələrinin yaradılmasının hüquqi təməli qoyuldu. Bu dəyişikliklər cənab Prezidentin müvafiq sərəncamı ilə təsdiqlənib və qanunun tətbiqi ilə bağlı əlaqədar strukturlara tapşırıqlar verilib.

Hal-hazırda yeni korpus hakimlərin mərhələli seçimi başa çatıb. Noyabr ayında isə hazırlanmış ikinci qanunvericilik paketinə baxıldı. Nəzərdə tutulan qanun layihələri "Məhkəmələr və hakimlər haqqında", "Dövlət məhkəmə ekspertizası fəaliyyəti haqqında" Qanunlardan başlayaraq, ümumiyyətlə 11 qanunu əhatə edir. Bunlar qəbul olundu.

**Qanunlarda dəyişikliklərin əsas məqsədi – vahid məhkəmə təcrübəsinin yaradılması və ədalət mühakiməsi həyata keçirilərkən, məhkəmələr tərəfindən hüquq normalarının eyni cür tətbiqinin təmin edilməsidir.**

**Xüsusi qeyd etmək istərdim ki, dövlət başçımızın məhkəmə sistemində vahid hüquqi yanaşmanı təmin etmək tələbi ilk növbədə ədalət mühakiməsinin keyfiyyətini qaldıracaq.** Bu eyni hüquqi yanaşmanın tətbiq edilməsində Ali məhkəmə hüququn tətbiqi üzrə vahid məhkəmə təcrübəsini həm baxdığı ayrı-ayrı işlər üzrə məhkəmə kollegiyalarının və Ali Məhkəmənin Plenumunun qərarları, həm də Ali Məhkəmənin Plenumunun məhkəmə təcrübəsinə dair verdiyi izahlar vasitəsilə formalaşdırılmalıdır.

Novellalar çərçivəsində sənədlər paketinə daxil olan digər mühüm istiqamət **məhkəmə prosesi iştirakçılarının məhkəmə ekspertizasının aparılması ilə bağlı hüquqların genişlənməsidir. Yeni bir hüquqi institut – özəl məhkəmə ekspertizası institutu yaradılır, mülki işlər, inzibati mübahisələr və inzibati xətalara dair işlər üzrə özəl məhkəmə ekspertizası fəaliyyəti ilə məşğul olmaq üçün irəli sürülən tələblər müəyyən edilir.** Bu qanun layihələrinin tətbiqinin də 2020-ci il yanvarın 1-dən qüvvəyə minməsi nəzərdə tutulub.

**Dövlət başçısının təşəbbüsü ilə məhkəmə-hüquq qanunvericiliyində həyata keçirilən novellalar ƏM**

**sistemindəki məhkəmə mübahisələrində həddindən artıq vacibdir.**

Biz dövlət başçısının fərmanının icrası ilə bağlı 3 aprel 2019-cu il keçirilən "Məhkəmə islahatları: məhkəmə-hüquq sisteminin əqli mülkiyyət hüquqlarının təminatında rolu" adlı milli konfrans-təlimdə və 5-6 dekabr 2019-cu il tarixində ÜƏMT ilə birgə keçirilən «İxtisaslaşmış məhkəmələrin milli və beynəlxalq təcrübəsi» adlı seminarda bu məsələlərə toxunaraq hakimlər tərəfindən fərqli yanaşma, xüsusi biliklərə malik olması, ekspertizanın vacibliyi haqqında konkret faktlara əsaslanaraq, bir sıra nümunələr gətirmişdik.

Hörmətli seminar iştirakçıları!

Məhkəmə-hüquq islahatları ilə bağlı qarşımızdakı vəzifələrin icrası yeni yanaşmalar tələb edir, məsuliyyətimizi artırır və mövcud olan imkanlarımızdan daha səmərəli istifadə etməyi tələb edir. **Bu ilin oktyabr ayının 15-də cənab Prezident keçirdiyi müşavirədə qeyd etmişdi ki, mövcud olan potensialdan, sahədəki ehtiyatlarımızdan daha səmərəli istifadə etməliyik.** Məhkəmə sahəsində ƏM-in qorunması və hüquqların müdafiəsi ilə bağlı bir neçə istifadə olunmayan ehtiyatlar üzərində dayanmaq istəyirəm.

Xüsusi olaraq "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasının «Qanunvericiliyin təkmilləşdirilməsi və institusional potensialın gücləndirilməsi» bölməsini və burada təsbit edildiyi kimi, **«Qanunvericilik təkmilləşdiriləcək, piratçılıq və kontrafaksiya da daxil olmaqla, ƏMH-nın pozulmasına qarşı səmərəli tədbirlər görüləcəkdir»** bəndini xatırlatmaq istəyirəm. Çünki kontrafaksiya bazarın, rəqabətin qatı düşmənidir.




Bu məqsədlərə xidmət edən Azərbaycanın “Əqli mülkiyyət hüquqlarının təminatı və piratçılığa qarşı” Qanunudur (qısaca “Antipirat” Qanunu). Lakin **bu Qanunun məhkəmə təcrübəsində zəif işləməsi nəzərə çarpır**. Məhkəmələrdə ƏM nümayəndələrinin iştirakı ilə keçirilən iclasların statistikasından və mövcud olan problemlərdən söz açaraq, işlər və adlar üzərində dayanmadan qeyd etməliyəm ki, baxılan mülki işlərin təhlili bir neçə nəticəyə gəlmək imkanını verir. Özü də biz çatışmazlıqları ilk dəfə deyil ki, səsləndiririk. Lakin təəssüflər olsun ki, problemlər hələ də qalır.

**Birincisi**, bəllidir ki, ƏMH-nın müdafiəsi daha çox xüsusi hüquq çərçivəsində təşkil olunur, yəni hüquq sahibi tərəfindən, onun iradəsi əsasında irəli sürülür və bu

sahədə tam mənada xüsusi hüququn əsas prinsipi – dəymiş zərərin tam ödənilməsi prinsipi işləyir. Lakin ƏM-i yalnız xüsusi hüquqa aid etmək yanlış olardı və buna əsasən xüsusi hüququn tətbiqi məhkəmə və hakimlərin işidir (dövlət bu məsələyə qarışmır), nəticə çıxartmaq da düzgün olmazdı. Əksinə, bir çox hallarda xüsusi hüquq üsullarını əvəz etmədən, lakin onlara əlavə olan kütləvi, publik-hüquq üsullarının tətbiqi əhəmiyyətli dərəcədə vacibdir.

Hüquqlar yalnız o zaman «real» tamdəyərli olur, əgər onların arxasında dövlətin məcburetmə aparatı durmaqdadır, özü də belə müdafiənin etibarlığı, məşhur Rudolf İerinqin sözlərinə əsasən, hüququn ədalət səviyyəsi olduğu qədər yüksək dəyərlidir.

Misal üçün, müvafiq Məcəllələrdə qeyd edilib ki, hüquqpozmalar müəyyən edildikdə Əqli Mülkiyyət Agentliyi tərəfindən protokollaşdırılır və cəza sanksiyalarının tətbiqi üçün məhkəmələrə yönəldilir. **Lakin məhkəmələr tərəfindən adekvat cavab görülmür, inzibati hüquq işlərinə adətən xitam verilir.**

**İkincisi**, məlumdur ki, «ex parte» - müvəqqəti tədbirlər, yəni hüquqpozmanın mahiyyətcə baxılmasından öncə, sübutların qorunub saxlanması üçün xüsusən müəllif-hüquq sahəsində vacib əhəmiyyət kəsb edir və piratçılığa qarşı mübarizədə alətlərdən biridir. Lakin **bu mexanizm zəif tətbiq olunur və demək olar ki, sıfır səviyyəsindədir**.

**Üçüncüsü**, “antipirat qanununun” tələbi olan – **məhkəmə qərarlarının dərc olunması zəif yerinə yetirilir**, halbuki bunun əhəmiyyətli dərəcədə maarifçi-informasiya potensialı vardır.

**Bununla belə**, məhkəmə korpusumuz öz üzərində çalışan hakimlərdən ibarət olduğuna görə ümidvaram ki,

qeyd etdiyim tövsiyələr nəzərə alınacaq və biz bu ehtiyatlarımızdan daha səmərəli istifadə edəcəyik.

## Agentliyin ƏMH-nın təminatı ilə bağlı həyata keçirdiyi tədbirlər

Görülən tədbirlərin nəticəsi olaraq, 2005-ci illə müqayisədə piratçılığın səviyyəsi kitab satışı sahəsində 61%-dən **23%-ə**, audio-video məhsul bazarında 90%-dən 58**%-ə**, proqram təminatında 96%-dən **72%-ə** düşmüşdür.




**Qeyd.** *BSA-nın 2016-cı il Hesabatında proqram təminatı sahəsində piratçılığın səviyyəsi 84% göstərilmişdir.*

- **Pozulmuş müəlliflik hüquqlarının bərpa edilməsi üçün edilən müraciətlər əsasında** 2019-cu il ərzində hüquqi və fiziki şəxslər tərəfindən 10 müraciət daxil olmuşdur. Həmin müraciətlər müəllif-hüquq qanunvericiliyinin tələbləri baxımından təhlil edilmişdir. Bir neçə müraci-

ətlə bağlı digər müvafiq dövlət və digər qurumlara sorğular göndərilmişdir. Qalan müraciətlər isə Agentliyin mütəxəssislərinin köməyi ilə öz müsbət həllini tapmışdır.

- Agentliyin 960 nömrəli "Qaynar xətt"i və ictimai əsaslarla fəaliyyət göstərən "Hüquq məsləhətxanası" il ərzində müəlliflərin və digər hüquq sahiblərinin istifadəsində olmuş, onların qaldırdıqları problemlərə operativ reaksiya verilmiş və həlli istiqamətində Agentliyin səlahiyyətləri çərçivəsində müvafiq tədbirlər görülmüşdür.
- 2019-cı ildə müəlliflərin və digər hüquq sahiblərinin müəllif-hüquq məsələləri üzrə ***1530-dan artıq*** müraciət və sorğusuna baxılmış və qaldırdıqları məsələlərin həllində, həmçinin iddia ərizələrinin tərtib edilməsində kömək göstərilmiş, müxtəlif məhkəmə instansiyalarında keçirilmiş 90-dan çox məhkəmə iclasında iştirak edilmiş, hər bir iş üzrə ekspert rəyi hazırlanmış, maarifləndirmə tədbirləri keçirilmişdir.



2019-cu ilin yekunları üzrə Sənaye mülkiyyətinin mühafizəsi sahəsində mübahisələrə baxan Apellyasiya şurası tərəfindən 135 işə (onlardan 110-u 2019-cu ildə daxil olmuş, 25-i isə əvvəlki dövrdən qalmış iş) baxılmışdır. İşlərə baxılması vəziyyəti barədə statistik məlumat aşağıdakı cədvəldə əksini tapmışdır.

<table>
<tr><th>2019-cu il ərzində daxil olmuş müraciətlərin sayı</th><th colspan="3">Hesabat ilində baxılmış işlərin sayı (ötən dövr üzrə daxil olmuş və yekunlaşdırılmış işlər də nəzərə alınmaqla)</th></tr>
<tr><td rowspan="6">110</td><td rowspan="6">135</td><td>ərizənin təmin edilməsi haqqında qərar qəbul edilmişdir</td><td>52</td></tr>
<tr><td>ərizənin qismən təmin edilməsi haqqında qərar qəbul edilmişdir</td><td>26</td></tr>
<tr><td rowspan="3">Ərizənin rədd edilməsi haqqında qərar qəbul edilmişdir</td><td>43 (əmtəə nişanına dair)</td></tr>
<tr><td>1 (ixtiraya dair)</td></tr>
<tr><td>1 (sənaye nümunəsinə dair)</td></tr>
<tr><td>ərizənin baxılmamış saxlanması haqqında qərar qəbul edilmişdir (ərizə geri götürülmüşdür)</td><td>12</td></tr>
</table>

# IV. ƏQLİ MÜLKİYYƏT HÜQUQLARININ TƏMİNATI VƏ MÜDAFİƏSİ SXEMLƏRDƏ




**1. Giriş (ümumi müddəalar)**

**1.1.** ƏM-lə bağlı hüquq normaları aşağıdakı hüquqi qorunma prinsipinin mövcudluğunu nəzərdə tutur:

**Hüquq sahibinin icazəsi olmadan heç kimin ƏM obyektinin istifadəsinə hüququ yoxdur. Odur ki, ƏM obyektinin hər hansı icazəsiz istifadəsi qanun pozuntusudur, bu istifadəni həyata keçirən şəxs isə qanun pozucusudur.**

Həmin aydın olan prinsip zaman-zaman ƏM-in dualizmi səbəbindən düzgün anlaşılmır (ƏM obyekti bir tərəfdən qeyri-maddi obyekt kimi, digər tərəfdən isə qeyri-maddi obyekt əksini tapmış maddi obyekt kimi – mal (əmtəə), məhsul olaraq mövcuddur).

**Beləliklə, hüquqi qorunma prinsipi yalnız ƏM-in qeyri-maddi obyektlərinə şamil olunur və onun əksini tapmış maddi obyektə aidiyyəti yoxdur.**

Məsələn, mülki dövriyyəyə buraxılan kitab alıcısı kitabı bilavasitə təyinatına görə istifadə etmək hüququna

malikdir (oxumaq, araşdırmaq, sitatlamaq, tənqid etmək və s.). Lakin kitab sahibi olan alıcının həmin kitabın surətini çıxartmaq, tərcümə etmək, kütləvi ifa etmək, İnternetdə yerləşdirmək və s. hərəkətlərə hüququ yoxdur.

Hüquqların yayılmasına tükənmə prinsipinə əsasən, kitab sahibi həmin kitabı sata, bağışlaya, kiminləsə əvəzləyə, hətta ata və məhv edə bilər.

**Beləliklə, hüquqi qorunma prinsipi yalnız ƏM obyektlərinə aid edilir, lakin ƏM obyektləri əks olunmuş mallara (əmtəələrə) aid edilmir.**

**1.2.** ƏM qanunvericiliyində müstəsna hüquqa aid istisnalar və məhdudiyyətlər verilir. Bu səbəbdən malların istehlakçıları müəyyən şərtlərlə və müvafiq hallarda ƏM obyektlərini də istifadə edə bilərlər.

**Deməli, hüquq sahibinin icazəsi olmadan ƏM obyektinin hər hansı istifadəsi qanunun pozulması və hər hansı istifadəçi qanun pozucusu deyil. Burada ehtiyatla yanaşmaq məsləhət görülür.**

Məsələn, «Piratçılıq» anlayışı geniş istifadə olunur, lakin terminin istifadəsi korrekt deyil.

Çünki qanun pozucularını pirat (oğru, quldur və s.) adlandırmaq həqiqətə uyğun deyil. Əgər əmlakın oğurluğu varsa, cinayət qanunvericiliyi əməlləri edən şəxsləri **«pirat», «oğru» və s. deyil, cinayət törədən şəxslər kimi tanıyır. Özü də oğurluğun, quldurluğun mahiyyəti odur ki, əmlakın qanuni sahibi ondan məhrum edilir, ƏM ilə bağlı hüquq pozucuları hüquq sahibindən ona məxsus ƏM-dən məhrum edilmirlər: hüquq sahibi ƏM-in hüquq sahibi olaraq qalır.**

## 2. Kontrafakt mallar (əmtəələr)

Əksər ölkələrdə ƏMH pozulduqda «kontrafakt» (ingiliscə, «counterfeit») termini istifadə olunur və sözün mənası «saxta», «fiktiv» deməkdir.

**Kontrafakt mal (əmtəə) – həmin malda (əmtəədə) əksini tapmış ƏM obyekti hüquq sahibinin icazəsi olmadan istehsal olunmuş maldır (əmtəədir).**

▪ Bu sıraya əksini tapmış qorunan və qeyri-qanuni istehsal olunan

- müəlliflik hüququ və əlaqəli hüquqlar obyektləri (geniş yayılıb);
- patent hüququ obyektləri (nisbətən az yayılıb);
- marketinq işarələri (geniş yayılıb).

▪ Bununla yanaşı, ləğv edilmiş və ya dəyişdirilmiş

- hüquq sahibi tərəfindən qoyulan texniki müdafiə vasitələri;
- hüquq sahibinin hüquqların idarə edilməsi haqqında informasiya.

**3. Hüquqların pozulmasının əsas səbəbləri**

♦ Ədəbiyyatla tanış olduğu halda belə bir fikir yarana bilər ki, istehlakçılar düşünülmüş halda hüquq sahiblərinin və istehsalçıların bazara buraxılmış mallara hüquqları pozurlar.

♦ Hər hansı hüquqpozma **iqtisadi hüquqların pozulmasıdır**. Bununla belə, hüquq sahibi istifadəyə inhisarçı olduğuna görə, **qiymətləri alıcı imkanına görə deyil, istəyinə əsasən müəyyən edir**.

**Nəticələr**

**1. Hüquq sahibləri güclərini əsirgəməyərək, hüquq pozuntuları ilə mübarizə aparırlar, halbuki həmin pozuntuların səbəbkarları sırasında özləridir.**

**2. İnkişaf etmiş ölkələrdə hüquq sahibləri kimi iri istehsalçılar çıxış edirlər və hökumət onları dəstəkləyərək, repressiv-hüquq üsullarına iqtisadi üsullarla müqayisədə üstünlük verir.**

**3. Nəticə etibarilə, xüsusi hüquqa deyil, publik hüququ üsullarına üstünlük verilir.**

| Hüququn növü | Şəxsi, qeyri-əmlak hüquqlar | Əmlak, iqtisadi hüquqlar |
|---|---|---|
| 1. Patent hüququ | **Müəlliflik hüququ:** pozuntular nadir hallarda | • məhsulun istehsalı, üsulun həyata keçirilməsi, məhsulun və ya üsulun mülki dövriyyəyə buraxılması, məhsulun idxalı |
| 2. Müəlliflik hüququ | **Müəlliflik hüququ:** ən geniş yayılan pozuntudur (plagiat) və şərikli müəllifliyə məcbur edilmə.<br>**Müəllifin şöhrəti:** yenidən işləmə, tərcümə zamanı kifayət qədər yayılıb | • surətçıxartma;<br>• yenidən işləmə;<br>• yayılma;<br>• kütləvi nümayiş, ifa;<br>• kütləvi bildiriş;<br>• kütləyə çatdırmaq məqsədilə interaktiv hüquq;<br>• idxal;<br>• kirayə. |
| 3. Marketinq işarələri (əmtəə nişanları, firma adları, coğrafi göstəricilər) | - | Geniş yayılıb:<br>• malın istehsalı;<br>• malın sərhəddən keçirilməsi;<br>• malın tətbiqi;<br>• malın saxlanması;<br>• malın satışa təklifi və s. |

Aşağıdakı sxemlər hüquqların müdafiəsini təsbit edir:

**5.1. Müdafiənin üsulları**

- hüququn tanınması;
- hüququn pozulmasına qədər olan vəziyyətin bərpa edilməsi və hüququ pozan və ya pozulması təhlükəsini yaradan hərəkətlərin qarşısının alınması;
- mübahisəli əqdin etibarsız hesab edilməsi və onun etibarsız sayılmasının nəticələrinin tətbiq edilməsi;
- zərərin əvəzinin ödənilməsi; mənəvi ziyana görə kompensasiya, müdafiənin digər üsulları;
- özünümüdafiə hüququ.

**5.2. Şəxsi qeyri-əmlak hüquqlarının müdafiəsi**

- hüququn tanınması;
- hüququn pozulmasına qədər olan vəziyyətin bərpa edilməsi;
- hüququ pozan və ya onun pozulması təhlükəsini yaradan hərəkətlərin qarşısının alınması;
- mənəvi ziyana görə kompensasiya, yol verilmiş pozuntu barədə məhkəmə qərarının dərc edilməsi.

**5.3. ƏFN-nə və fərdiləşmə vasitələrinə əqli mülkiyyət hüquqlarının tələb təqdim etmək yolu ilə müdafiəsi**

- hüququn tanınması barədə – hüquq sahibinin hüququnu inkar edən və ya başqa şəkildə tanımayan və bununla onun maraqlarının pozan şəxsə münasibətdə;
- hüququ pozan və ya pozmaq təhlükəsi yaradan hərəkətlərin qarşısının alınması barədə – bu cür hərəkətləri edən və ya belə hərəkətləri həyata keçirmək üçün zəruri hazırlıq işləri görən şəxslərə, həmçinin bu hərəkətlərin qarşısını ala biləcək digər şəxslərə münasibətdə;
- zərərin əvəzinin ödənilməsi barədə – əqli fəaliyyətin nəticəsini qanunsuz və ya fərdiləşdirmə vasitəsini hüquq sahibi ilə müqavilə bağlamadan (müqaviləsiz istifadə) istifadə edən, yaxud hüquq sahibinin müstəsna hüququnu başqa şəkildə pozan və ona zərər vuran, o cümlədən Qanunun müvafiq maddəsində nəzərdə tutulmuş qonorar almaq hüququnu pozan şəxsə münasibətdə;
- kontrafakt maddi daşıyıcının müsadirə edilməsi barədə – onun istehsalçısına, idxalçısına, saxlayıcısına, daşıyıcısına, satıcısına, digər distribütoruna, ədalətsiz əldə edənə münasibətdə;
- həqiqi hüquq sahibi göstərilməklə, qanun pozuntusuna dair məhkəmə qərarının dərc olunması barədə - müstəsna hüququ pozan şəxsə münasibətdə.

5.4. Əqli mülkiyyət hüquqlarının müdafiəsi üsulları aşağıdakıların tələbi ilə tətbiq edilə bilər

- hüquq sahibləri
- hüquqları kollektiv əsasda idarə edən təşkilatlar
- digər şəxslər

5.5. Qanunvericiliklə nəzərdə tutulmuş əqli mülkiyyət hüquqlarının pozulmasına görə məsuliyyət tədbirləri, qanunvericilikdə başqa hal nəzərdə tutulmazsa, hüquq pozucusunun günahı sübut olunduqda tətbiq olunur. Bununla belə:

- günahsız olması ƏMH-nı pozmuş şəxs tərəfindən sübut olunur;
- sahibkarlıq fəaliyyətini həyata keçirən şəxs ƏMH-nın pozulmasının qarşısıalınmaz qüvvələr səbəbindən baş verdiyini sübut edə bilməsə, ona münasibətdə günahkar prezumpsiyası müəyyən edilmişdir;
- ƏFN-nə və ya fərdiləşmə vasitəsinə müstəsna hüququn bir pozuntusu bir neçə şəxs tərəfindən birgə törədilmişdirsə, həmin şəxslər hüquq sahibi qarşısında birgə cavabdehlik daşıyırlar.

5.6. Müstəsna hüquqların pozulması hallarında müəllif / hüquq sahibi tətbiq edilən qanunvericiliklə müəyyən edilmiş digər müdafiə üsulları və məsuliyyət tədbirləri ilə yanaşı, öz seçiminə əsasən, pozuntuya yol verən şəxsdən vurulmuş zərərin ödənilməsi əvəzinə kompensasiya ödənilməsini müvafiq qanunvericiliyin uyğun maddəsinə görə, aşağıdakı hallarda tələb edə bilər:

- əsərə müstəsna hüququn pozulması;
- əlaqəli hüquqlar obyektinə müstəsna hüququn pozulması;
- ixtiraya, faydalı model və sənaye nümunəsinə müstəsna hüququn pozulması;
- əmtəə nişanı və coğrafi göstəriciyə müstəsna hüququn pozulması hallarında.

**5.7. Bir neçə əqli fəaliyyət nəticəsinə və ya fərdiləşdirmə vasitəsinə hüquqların bir hərəkətlə pozulmasının nəticələri**

ƏFN-nin və ya fərdiləşdirmə vasitəsinin hər qeyri-qanuni istifadəsinə görə kompensasiyanın ölçüsü məhkəmə tərəfindən müəyyən edilir

LAKİN
əgər müvafiq nəticələrə və ya fərdiləşdirmə vasitələrinə hüquqlar bir hüquq sahibinə məxsusdursa

Onlara hüquqların pozulmasına görə kompensasiyanın ümumi məbləği hüquq pozuntusunun xarakteri və nəticələri nəzərə alınmaqla, məhkəmə tərəfindən qanunvericiliklə müəyyən edilmiş hədlərdən aşağı endirilə bilər, lakin bu məbləğ hüquq pozuntusuna görə bütün kompensasiyaların minimum məbləğinin 50 faizindən az ola bilməz.

**5.8. Qeyri-qanuni istifadə olunmuş əqli fəaliyyət nəticələrinin və ya fərdiləşdirmə vasitələrinin ifadə olunduğu maddi daşıyıcılar**

kontrafakt sayılır və məhkəmənin qərarı ilə dövriyyədən götürülür və hər hansı bir kompensasiya ödənilmədən məhv edilir.

**5.9. Müstəsna hüquqların pozulmasında başlıca olaraq istifadə olunan avadanlıqlar, qurğular və materiallar**

qanunda başqa hal nəzərdə tutulmazsa, hüququ pozmuş şəxsin hesabına dövriyyədən götürülür və məhv edilir.







*Sonda hər zaman iradənizin sahibi, vicdanınızın qulu olmağınızı arzulayıram.*

---

Azərbaycan Respublikasının
Əqli Mülkiyyət Agentliyində hazırlanmışdır.